MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXII buraxılış, Bakı, 2022
МИР КУЛЬТУРЫ
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXII выпуск, Баку, 2022*
THE WORLD OF CULTURE
*Azerbaijan State University of Culture and Art, XXXXII edition, Baku, 2022*

**UOT 902**

**Sahib Telman oğlu Vəliyev**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**tarix üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: s.valiyev@inbox.ru**

# ARXEOLOJİ QAZINTILAR ƏSASINDA GƏDƏBƏYİN REGİONAL TARİXİ

**Xülasə:** Azərbaycanın qədim yaşayış bölgələrindən biri olan Gədəbəy rayonunun zəngin tarixi vardır. Gədəbəy rayonunun memarlıq abidələri artıq bizim milli mədəniyyətimizin və tariximizin rəmzinə çevrilmişdir. Gədəbəy rayonunun ən qədim, vaxtilə bütövlükdə qara divarları ilə əhatə olunmuş içərisi rayonun ərazilərində olan ən qədim tarixə malik qalalar, qalaçalar, qüllələr, qəsrlər və qədim yaşayış yerləridir. O yerlərdə bu günə qədər qorunub saxlanılmış müdafiə, dini ibadət, içtimai və məişət xarakterli, bir sıra tikililərinin və qurğuların mühəndis-memarlıq həllinin kamilliyi, xalqımızın mədəniyyət tarixində mühüm yer tutan memarlıq məktəbinin yüksək peşəkarlıq səviyyəsindən xəbər verir [1, s.312; 11, s.198].

Azərbaycan tarixinin müxtəlif problemlərini öyrənmək üçün çox mühüm sənədli qaynaqlardan biri də Gədəbəy rayonunun ərazisindəki yaşayış yerlərindəki "Gədəbəy dəfinələri" adı ilə məşhur olan, içərisində müxtəlif qiymətli əşyalar, gümüş sikkələr, ev müxəlləfatı, boyunbağılar və bəzək əşyaları olan qədim küplərdir.

Memarlıq tariximizin daş ensiklopediyası olan Gədəbəy diyarı Azərbaycanın hər bir bölgəsində inşa edilmiş qədim tikililərə qırılmaz tellərlə bağlı olmasını da qeyd edə bilərik. Gədəbəyimizin əsrlərlə yaradılmış siması özünəməxsus relyefiylə nadir memarlıq incilərinin vəhdətini əks etdirir.

**Açar sözlər:** Gədəbəy rayonu, arxeoloji qazıntılar, Xocalı-Gədəbəy mədəniyyəti, milli sərvətlər, regional tarix, "Çaykənd"

## Giriş

Gədəbəy rayonu Azərbaycan təbiətinin nadir gözəlliklərini, Azərbaycan xalqının maddi və mədəni irsini, qədim tarixə malik olan adət və ənənələrini özündə əks etdirən füsunkar diyardır. Gədəbəy rayonu təkcə özünün nadir gözəlliyə malik yeraltı və yerüstü sərvətləri ilə deyil, həm də nadir təbiəti, qədim insan məskənləri, qalaları, qalaçaları və müalicəvi suları ilə də məşhurdur. Sərt dağlar, sıx meşələrlə əhatələnən Kiçik Qafqaz sıraları ilə əhatələnən Şahdağın ətəyində zəngin və şanlı tarixi keçmişə malik olduğunu deyə bilərik [2, s.51; 12, s.23].

Uzaq keçmişdə bura qədim Xocalı-Gədəbəy mədəniyyətinə (e.ə. ikinci minilliyin ikinci yarısı – birinci minilliyin əvvəlləri) daxil olan ən qədim yaşayış yerlərindən birində yaranmış və daimi insan məskəninə çevrilmişdir. Rayon ətrafındakı qədim tarixə malik olan yaşayış yerləri, o cümlədən məşhur qalalar, qalaçalar, körpülər və qədim yaşayış mağaraları Azərbaycan ərazisində ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir [3, s.66; 13, s.60].

Dəniz səviyyəsindən 2901-3203 metr yüksəklikdə sıralanan Şahdağın ətəyində Azərbaycanımızın ən dilbər guşələrindən biri yerləşən Gədəbəy şəhərinin cənubunda Qafqazın ən qədim yaşayış məskənlərindən biri yerləşir.

XX əsrin 70-ci illərində Kəlbəcər rayonunun ərazisindəki Zar və Gədəbəy rayonunun qərb istiqamətindəki Şəmşəddin mahalını əhatə edən Tağılar kəndinin yaxınlığında Tağılar, Bala Tağılar və Murğuz meşələri ətrafındakı "Qoşa dəyirman" adlanan mağaralarından və Göyçə gölünün ətrafındakı "Şur təpə", "Şurtan", Şurtandüz, "Əyrivəng" və "Çaykənd" açıq tipli yaşayış düşərgələrində aparılan arxeoloji tədqiqatlar, axtarışlar və qazıntılar zamanı o yerlərdə paleolit dövrünə aid daş alətlər və qədim zamanları özündə əks etdirən yaşayış yerləri aşkar olunmasını qeyd edə bilərəm [4, s.112; 14, s.29].

**Arxeoloji qazıntılar əsasında Gədəbəyin regional tarixi**

Gədəbəy rayonu, Xocalı-Gədəbəy tarixini özündə birləşdirib yaşadan yaşayış məskənidir. Bu yaşayış yerlərinin üzərində inşa edilmiş ən qədim qalaların və qalaçaların tarixinə diqqət yetirməli olanda VII-VIII əsrlərə qədər boylanmalı olursan. Həmin yerində qədim yaşayış məskəni olduğunu, həmin yaşayış yerlərinin XIII əsrdə monqolların üç basqını nəticəsində dağıdıldığını müəyyən etmişlər [5, s.147; 15, s.27].

Paleolit arxeoloji ekspedisiyası Gədəbəy, Qazax və Tovuz rayonları ərazisində arxeoloji kəşfiyyat işləri aparmış, Gədəbəy rayonunun Saratovka-İvanovka yolunun üstündəki "Kilsə dərəsi", Çobankənd kəndi yaxınlığındakı "Dəmirlik", "Orta Şurtəpə", "Çaykənd", "Əyrivəng", "Pirbudaq" və "Şurtəpə" və "Şurabad" kəndlərinin yaxınlığındakı "Qalaça"dan, Qızıltorpaq kəndi yaxınlığındakı "Qızılqaya" kimi tanınan qədim insan məskənlərindən Mustye mədəniyyətinə aid çaydaşılarından hazırlanmış itiuclular və qəlpələr toplamışdır. Həmin yerlərdən tapıntılar bu günə qədər də davam edir [6, s.14; 16, s.45].

XIX əsrin ortalarında Gədəbəy rayonu ərazisində mis filizi yataqları kəşf edilmiş və 1855-1856-cı illərdə yerli sahibkarlar tərəfindən misəritmə zavodu tikilmişdir. Daha sonra həmin zavod Almaniyanın "Simens" şirkəti tərəfindən alınaraq, 1865-ci ildə yenidən qurulmuşdur. "Simens" şirkəti tərəfindən 1883-cü ildə Qalakənd misəritmə zavodu tikilmiş, 1879-cu ildə Zaqafqaziyada ilk dəfə uzunluğu 28 km olan





Gədəbəy-Qalakənd arasında dəmiryolu çəkilmişdir. Bu dəmiryolunda 4 lokomotiv, 33 vaqon hərəkət etmişdir. Bu gün də həmin yol ilə bağlı salınmış körpülər tarixi abidə kimi qalmaqdadır [7, s.102; 17, s.84; 19].

1883-cü ildə Qalakənd kəndində Çar Rusiyası ərazisində ilk su elektrik stansiyası tikilmiş, Qalakənd misəritmə zavodunda elektroliz üsulu ilə mis əridilmişdir. Bu zaman Avropanın mərkəzi şəhəri London, Paris, Sankt Peterburq şəhərlərində kerosin lampalarından istifadə olunduğu halda, Gədəbəydə elektrik işığından istifadə edilirdi [8, s.118; 18, s.40; 20].

Həmin dövrdə alman alimləri tərəfindən Gədəbəy rayonu ərazisində arxeoloji qazıntı işləri aparılmışdır. Arxeoloji qazıntının nəticələri Almaniyanın "Folker Şpis" elmi nəşriyyatı tərəfindən "Qalakənd" adlı elmi əsər şəklində Berlində çap edilmişdir. Əsər Berlin Dövlət muzeyində saxlanılır [9, s.100].

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, çaxmaqdaşı Azərbaycan Respublikasının Qarabağ ərazisində, dəvəgözü daşı isə Kəlbəcər, Gədəbəy rayonlarının ərazilərində, Göyçə gölü ətrafında, Şurtəpə (indiki Şahdağ – keçmiş Şurabad kəndi), Əyrivəng, Qırcıllı, Arıtəpəsi, Qalaça və Çaykənd açıq tipli yaşayış məskənlərində daha çox yayılmışdır. Mustye mədəniyyəti dövründə daşdan əmək alətləri hazırlamaq üçün xammal toplamaqla xüsusi insanlar qrupu məşğul olmuşlar. Həmin insanlar qrupunun Gədəbəy rayonunun ərazisindəki Çobankənd kəndi yaxınlığındakı "Dəmirlik", Yenikənd kənd ərazisində "Kilsə", "Pirbudaq", "Qırcıllı" kimi və "Şurabad" kəndinin (vaxtilə Şurtəpə kimi tanınan ərazi) yaxınlığındakı "Qalaça", Göyçə gölü mahalının yaxınlığındakı Orta Şurtəpə kimi adlanan yaşayış yerlərində yaşamaları məlum olmuşdur. Bunlar arxeoloji qazıntılar və tapıntılar kimi də tarixə düşmüşdür. Onu da qeyd edim ki, yerli camaatın bu günə qədər "Qalaça" kimi tanıdıqları və gördükləri qədim qəbirlər hələ də qalmaqda davam edir. Həmin ərazilərə yaxın olan yerlərdən biri də "Kilsə" kimi tanınan qədim yer adıdır. Haqqında danışdığımız və yazmaq istədiyim Kilsə dərəsi o yerlərdir ki, bu günə kimi həmin yerlər öz adları ilə çağırılır və qədim qalıqları ilə hamının diqqətini cəlb etməkdədir. Saratovka-İvanovka yolunun üstündəki "Kilsədərəsi" kimi tanınan ərazisinin kilsə qalıqları nə dünənin, nə də bu günün yox, eramızdan əvvəl XII-VII əsrləri əhatə edən Xocalı-Gədəbəy mədəniyyətinin bir hissəsi kimi tariximizə daxil olmuşdur [13, s.63).

Gədəbəy rayonunun ərazisində qədim zamanlardan bəri yaşayış məskənlərinə diqqət yetirib, o rayonun ərazilərindəki qədim qalalara, qalaçalara, qədim qəbir qalıqlarına, qəbir daşlarına və yaxud, o torpaqda, o yerlərdə yaşamış ulu babalarımızın dediklərinə diqqət yetirəndə arxeoloqların apardığı qazıntılar da lazım olmadan onları 1350-ci illərdə tayfaların o yerlərdə birləşməsini təsdiq edir. Qara Yusif kimi

insanların oxşarlığına və Uzun Həsən kimi nəhəng insanların nəhəngliyinə təsadüf etmək olar. Bu mövzuya başqa bir tərəfdən yanaşmış olsaydıq onda görərdik ki, yuxarıda qeyd etdiyimiz kimi zaman-zaman Ərdəbildən, Farsafatdan, Tehrandan, Təbrizdən, Qumdan, İran Astarasından, Şamdan, Xoydan köçüb Azərbaycanımızın Qərb zonasında indiki Gədəbəy rayonunun ərazisində özlərinə yaşayış məskənləri seçmək istəyənlər bunlara əyani sübutdur [14, s.29].

**Gədəbəy rayonu ərazisində arxeoloji mədəni sərvətlərin tədqiqi**

Azərbaycan Respublikası ərazisində son 75 il ərzində aparılan arxeoloji tədqiqatlar nəticəsində ilk ibtidai insanların məskunlaşmasına aid zəngin arxeoloji, paleontoloji və paleoantropoloji materiallar aşkar edilmişdir. Həmin elmi tapıntılar əsasında respublikamızın ərazisində, onun kimi də Gədəbəy rayonunun yaşayış məskənləri də ibtidai insanın formalaşdığı ərazilər sırasına daxil edilmişdir. Aparılan kompleks arxeoloji tədqiqatlar nəticəsində Azərbaycan ərazisində ilk ibtidai insanların 2-2,5 milyon il bundan əvvəl məskunlaşmağa başlamaları elmi faktlarla sübuta yetirilmişdir [15, s.23].

Əldə olunan mənbələr, eləcə də tarix və arxeoloji materiallar, onu göstərir ki, Azərbaycanın bir çox əyalətləri kimi Gədəbəy rayonunun ərazisi də antik dövrdə, iqtisadi cəhətdən inkişaf etmiş və sıx əhaliyə malik olan qədim tarixə malik olan iri yaşayış məskənidir. Gədəbəy rayonu qədim zamanlarda təkcə Cənubi Qafqazda deyil, eləcə də yaxın Şərqdə əhalinin sıx məskunlaşmış ərazilərindən biri kimi tanınmışdır. Əlverişli iqlimi, təbii coğrafi şəraiti, təbii sərvətlərin bolluğu, beynəlxalq əhəmiyyətli ticarət yolları, bu yaşayış düşərgəsinin iqtisadi cəhətdən inkişafına kömək etmişdir. Yüksək təpələr üzərində salınmış qədim tarixə malik olan yaşayış düşərgələri bir tərəfdən Zəyəm çayı, digər tərəfdən isə Şəmkir çayı, yuxarı hissədən isə Kiçik Qafqaz dağları ilə əhatə olunur. Üçqat qala divarları və Qız qalası, sanki bütövlükdə möhtəşəm müdafiə istekamını xatırladır [15, s.24].

Bu ərazilər tarixi Azərbaycan torpaqlarının – Midiya dövlətinin, Atrapatların, Alban, Hun, Baharlı, Qaraqoyunlu və Ağqoyumlu, Oğuz və Qıpçaq tayfalarının bunun kimi də Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, Səfəvi dövlətinin, Qafqaz Albaniyasının, İrəvan xanlığının ayrılmaz hissəsidir. Bir yanı Qarabağ, bir yanı İrəvan xanlığı, bir yanı Şəmşəddin eli, bir yanı isə Göyçə mahalı ilə əhatələnən Gədəbəy rayonunun hərbi-strateji əhəmiyyətli və iqtisadi, siyasi, mədəni mərkəzi kimi yaranmış və inkişaf etməkdədir [15, s.25].

**Qədim Gədəbəy mədəniyyəti tarixmizi özündə əks etdirir**

Gədəbəy rayonunun Azərbaycanın ən qədim insan yaşayış məskənlərindən biri olması Daş Dövrünün ən qədim tapıntılarına misaldır. Ərazidə olan tarixi mədəniyyət abidələri bugünkü varlıqları ilə onu təsdiq edir.





Bölgənin dünya əhəmiyyətli tarixi yerlərindən biri sayılan Böyük Qalaça Söyüdlü kəndinin ərazisində yerləşir. Əslində bu, nəhəng daşlardan hörülmüş uca qala dağdır. Mütəxəssislərin fikrincə, ilk dəmir dövründə tikilib və müdafiə məqsədi daşıyırmış. 1947-ci ildə burada müəyyən qazıntı, axtarış işləri aparılıb. Söyüdlü kəndinin digər “möcüzəsi” Qız qalasıdır. O da yüksək bir qayalığın başında, son dərəcə mənzərəli, füsunkar sahədə yerləşir. Hər tərəfdən yaşıllıqla əhatə olunub. Yaxınlıqda çay axır, şəlalə çağlayır. Qız qalası kərpiclə hörülmüş 5 ədəd dairəvi sütundan ibarətdir. İlk baxışda giriş-çıxış yerləri görünmür. Sütunlar hündürlüyünə və diametrinə görə bir-birindən fərqlənir. Cəm halında bütün kompleks qədim şəhəri xatırladır.

Onu da qeyd edim ki, düşərgənin I və II təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı Orta əsrlər, tunc və Eneolit dövrlərinə aid maddi mədəniyyət qalıqları tapılmasını xüsusi qeyd etmək lazımdır.

M.M.Mənsurovun rəhbərlik etdiyi dəstə 1962-1966-cı illərdə Qazax, Tovuz və Gədəbəy rayonları ərazisində apardıqları arxeoloji kəşfiyyat işləri zamanı Paleolit dövrünə aid Gədəbəydə Qayalı, Quzey, Qədirdərə, Çınqıltəpə, Uzundərə, Çaxmaqlı, Marallı, Yataq, Qızılqaya, Tikdaş, Qalaça, Dəmirlik, Kilsə, Qızılvəng, Şurtəp, Orta Şurtəpə, Şurtəpə, Çaykənd, Daşəsəri, Qaraqaya, Çömçəli, Karxana, Daşapxac, Sariqaya, Araba yolu, Sarıyol, Cillitala, Dərbənd, Çertdər, Pirbulaq, Çiçəkli, Şoraq, Qırcıllı, Pirbudaq, Yalpaya, Höyər, Tayçarıx, Orta tala, Kötüklü, Zeynaltala, Xanımtalası, Almatala, Qədirtalası, Dumanlıtala, Araba, Araba yolu və başqa yerli abidələrini bunun kimi də yaşayış yerlərini qeydə almışdır. Bunların tarixi qaynaq kimi əhəmiyyətini də xüsusi vurğulamaq yerinə düşərdi [8, s.112; 15, s.32].

**Gədəbəy arxeologiyası – maddi mədəniyyətimizin əsas mənbəyi kimi**

Gədəbəy qrupuna aid olan etnoslar üstünlük təşkil etmiş və Azərbaycanın cənub rayonlarına da yayılmışdır. Ola bilsin ki, bu dövrdə Xocalı-Gədəbəy mədəniyyətinə aid tayfalar vahid bir etnos halında birləşmişdir. Bəzək əşyaları – Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən aşkar olunan tunc kəmərlər yüksək sənətkarlıqla hazırlanmaları ilə fərqlənir [20].

Düşmən hücumundan qorunmaq üçün tikilmiş keşikçi qalaları, nadir memarlıq abidələrindən olan Qız qalası (IX əsr), Novosaratovka kəndində məbəd (1535-ci il), Qalakənddə qala (XVI əsr), Böyük Qaramurad kəndində məbəd (1634-cü il) və s. bunu sübut edir [20].

Memarlıq abidələrindən Söyüdlü kəndində (Şəmkir çayının üstündə) Qız qalası ("Namərdqala" IX əsr) və Mahrasa məbədi, Novosaratovka kəndində məbəd (1535), Qalakənd kəndində qala (XVI əsr), Böyük Qaramurad kəndində qala (16-34), Dikdaş kəndi ərazisində (Bayram dərəsində) alban kilsəsi (Qızıl qaya mağarası,

Kilsə) Əyrivəng, və Həmşivəng məbədi, Səbətkeçməz kəndində üç körpü (IX əsr) və s. bu günə kimi qalmışdır [20].

Gədəbəy rayonu ərazisindəki abidələr Azərbaycan tarixinə Gədəbəy-Xocalı mədəniyyəti adı ilə daxil olmuş mədəniyyətin tərkib hissələridir. Burada tunc dövrünün sonuna aid siklopik tikililər, Böyükqala qalası, Qalakənd qalası (XVI əsr), Qız qalası (Onu Namərdqala da adlandırırlar – IX əsr), Şurabad kəndinin yaxınlığındakı "Qalaça", "İmamizi", Koroğlu qalası, XI əsrdə tikilmiş tağlı körpü də vardır [20].

Haqqında danışıb və yazmaq istədiyim Gədəbəy rayonu Kiçik Qafqazın orta və yüksək dağlıq qurşaqlarında yerləşməsi onu tanıyanlara və bu yerlər haqqında dəqiq məlumatları olanlara məlumdur. Ərazisi Şahdağ silsiləsinin şimal yamacını, "Şəmşəddin" elinin və "Murğuz" çöllərindən, "Çaytarıx" elindən, "Qaraqoyunlu dərəsi"ndən, "Göyçə gölü" mahalından "Başkənd-Dəstəfur" çökəkliyinin, "Şəmkir dağ" massivinin Kəlbəcər ərazisində tapılmış "Zar" və "Orta Şurtan" və "Şurtan" (Gədəbəy rayonunun ərazisində Çaykənd və Şurtəpə) mağaralarının da yaşayış yerlərinin bir hissəsini əhatə edir. "Göyçə gölü" ilə "Şurabad" kəndi arasında yerləşən "Kilsə" "Mağara" və "Qalaça" (el arasında Koroğlu zağası kimi tanınan mağaranın içərisində yüzlərlə insanın yaşaması, oranın şəraitindən xəbər verir. İçəridə bölgülərin aparılması hər kəsin diqqətini cəlb edir. Daşdan hazırlanmış yataq yerlərinə və vəhşi atların saxlanılmasına kimi) neçə minilliklərin yadigarı olan qəbir daşları da o zamanın qalığından xəbər verir. O yerlərdə o yerlər haqqında bir sıra maraqlı məlumatlarla rastlaşmaq mümkündür. Elə bu yerdə onu da qeyd edim ki, tarixini vərəqlədiyimiz tariximizin hər yanına üz tutanda yerli mənbələrdən verilmiş informasiyalar hər zaman diqqətimizi cəlb etmiş olur [18, s.39; 20].

**Gədəbəy rayonu ərazisində olan qədim yaşayış düşərgələrinin arxeologiya elminə verdiyi töhfələr**

Kiçik Qafqazın orta və yüksək dağlıq qurşaqlarında yerləşən Gədəbəy rayonu da tarixi abidələr sarıdan zəngin bir məkandır. Elmi ədəbiyyatda Gədəbəy-Xocalı mədəniyyəti kimi tanınmış qədim mərhələ özlüyündə iki minillik bir tarixi dövrün – Tunc dövrünün arxeoloji təsdiqidir. Rayonda 1 dünya, 81 ölkə və 24 yerli əhəmiyyətli abidə qeydə alınıb. Gədəbəyin hər guşəsində qala və qalaçalar, müdafiə istehkamları, məbəd və türbələr var.

Kiçik Qaramurad ətrafında qeydə alınmış mağara və Qalakənd kəndindən tapılmış nümunələrə görə Gədəbəyin tarixi daş dövrünə (mezolitə) gedib çıxır. Buradakı arxeoloji abidələr tunc və ilk dəmir dövrünə aid qəbirlərlə, daş qutu qəbirlərlə, kurqanlarla, qədim qalaçalarla, ibadətgahlarla izlənilir. Gədəbəy abidələrinin zənginliyi XIX əsrdən dünya alimlərinin diqqətini cəlb edib. Almaniyanın "Simens" şirkətinin misəritmə zavodunun tikintisi ilə əlaqədar görülən torpaq işləri zamanı





ərazidə tapılan maddi-mədəniyyət nümunələri zavodun əməkdaşı V.Belkin xüsusi diqqətini çəkib. 1888-1890-cı illərdə o, Gədəbəydə və ətraf kəndlərdə 300-dən çox daş qutu qəbir abidəsi qazıb. V.Belk tədqiq etdiyi qəbirlərdən əldə etdiyi yüzlərlə nümunələri Almaniyaya R.Virxova göndərib. Bu materiallar əsasında R.Virxov özünün "Qafqazın mədəni-tarixi əhəmiyyəti" adlı monoqrafiyasını yazıb və Gədəbəyin zəngin arxeoloji materialları əsasında Berlində, o vaxtlar dünyada analoqu olmayan muzey yaradıb [8, s.145; 15, s.27; 24, s.214].

1896-cı ildə Moskva arxeoloji cəmiyyətinin üzvü A.A.İIvanovski Gədəbəydə yenidən arxeoloji qazıntı işləri aparıb və tədqiqat üçün 72 daş qutu qəbir qazıb. Burada skeletsiz qəbirlərə də rast gəlinib. Qəbirlərdə insan dəfn edilməsə də onlardan saxsı qablar və iribuynuzlu heyvana aid ayaq sümükləri tapılıb. "Göyəmin yanı", "Fındıqlı", "Zəyəm", "Babacan" çaylarının sol və sağ sahillərində və "Çal" nekropolunda qazılmış daş qutu qəbirlərdə dəfn olunmuş heyvanın ayaq sümüyünün qurban kəsilmiş öküzün ayağı olduğunu ehtimal etmək olar. Görünür, öküz dəfn mərasimində qurban kimi kəsilib, bir hissəsi ehsan paylanıb, ayağının biri isə qəbirə və ya "qurbangaha" qoyulub. Ehtimala görə, heyvan (öküz) budunun qəbirlərdə dəfni və kəmərlərin üzərindəki təsvirləri Qafqazda, o cümlədən Azərbaycanda yaşamış qədim əhalinin axirət dünyası ilə bağlı dini təsəvvürləri ilə bağlıdır. Skeletsiz qəbirlərdə təkcə saxsı qablar olur, bəzək əşyalarına, silahlara, əmək alətlərinə təsadüf edilmir. Tamamilə boş, skeleti, avadanlığı olmayan qəbirlərə də rast gəlinir. V.Belk, A.İvanovski, E.Resler, Y.Qummel və başqa tədqiqatçılar Qərbi Azərbaycanın son tunc və ilk dəmir dövrünə aid nekropollarında apardıqları arxeoloji qazıntılar zamanı onlarla skeletsiz qəbirlər aşkar ediblər [8, s. 23; 13, s.62;23, s.129; 24, s.49; 21].

**Gədəbəy arxeologiyasının formalaşması maddi mədəniyyətimizin əsas mənbəyi kimi**

XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Rusiya İmperiyasının Cənubi Qafqaza nüfuzu zamanı Gədəbəyin hərbi-strateji mövqeyinə xüsusi üstünlük verilmişdir. Təsadüfi deyildir ki, XIX əsrin 40-cı illərində Gədəbəy ərazisində ilk rus məskənləri salınmışdı. Gədəbəy rayonunun hazırkı inzibati mərkəzi olan Gədəbəy şəhərinin əsası isə 1863-cü ildə qoyulmuş, çar Rusiyası dövründə yeni yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının Yelizavetpol qəzasının tərkibinə daxil edilmişdi. Gədəbəyin yüksəlişində burada 1849-cu ildə kəşf edilmiş mis filizi əsasında 1855-1856-cı illərdə misəritmə zavodunun tikilməsi böyük rol oynamışdır. Gədəbəydə mis filizi çıxarılması və misəritmə işi sonralar alman sahibkarları Simenslərə keçmişdi. Bu müəssisə 1865-ci ildə yenidən qurulmuş, 1883-cü ildə isə ikinci zavod – Qalakənd misəritmə zavodu tikilmiş, Gədəbəy-Qalakənd arasında dar dəmiryolu

xətti çəkilmişdi. Qalakənddə misi elektrik üsulu ilə əritmək üçün Rusiyada ilk dəfə olaraq su elektrik stansiyası tikilmişdi [14, s.31; 19; 24, s.214].

Rusiya İmperiyasında istehsal olunan misin dörddə bir hissəsi Gədəbəy-Qalakəndin payına düşürdü. Gədəbəy-Qalakənddə mislə bərabər, xeyli miqdarda qızıl və gümüş də əldə edilmişdi. Burada istehsal olunan məhsul, nəinki Rusiya bazarına, eləcə də dünya bazarına çıxarıldı. Müasir istehsal prosesi ərazidə müvafiq infrastruktur yaradılması ilə müşahidə olunurdu. Bunun nəticəsi idi ki, Gədəbəy bütün tələblərə cavab verən Avropa tipli qəsəbəyə çevrilmişdi. Gədəbəy-Qalakənd mis filizi rayonunda çalışan fəhlələr sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması üçün mübarizə aparırdılar. Ona görə də Azərbaycan tarixində məşhur Gədəbəy tətilləri (1872, 1878, 19–04, 1905, 1907, 1917) xüsusi yer tutur. Birinci Dünya müharibəsinin sonlarına doğru Gədəbəy-Qalakənd misəritmə zavodlarının fəaliyyətinin zəifləməsi ilə Gədəbəyin mövqeyində də dəyişiklik baş verir. İqtisadi həyatda kənd təsərrüfatının, xüsusilə kartofçuluğun rolu artdı. Gədəbəyin elmi-mədəni həyatında XIX əsrin ortaları – XX əsrin əvvəllərində aparılmış arxeoloji qazıntılar da mühüm yer tutur. Onların nəticəsi «Folker Şpis» elmi nəşriyyatı tərəfindən «Qalakənd» adlı elmi əsər şəklində Berlində çap edilmiş və Berlin dövlət muzeyində saxlanılır. Gədəbəyin əhəmiyyəti nəzərə alınaraq 8 avqust 1930-cu ildə müstəqil inzibati vahid-rayon kimi ayrılmışdı. 1930-cu ildən 1960-cı illərin sonunadək olan dövrdə rayonun iqtisadiyyatı nisbətən zəif inkişaf etmişdi (11, s.200; 19; 22].

**Müasir tarixmizdə və müstəqillik dövrümüzdə qədim yaşayış düşərgəsi olan Gədəbəy arxeologiyası elminin formalaşmasına dövlət qayğısı**

Gədəbəy rayonunun mis yataqları ilə bərabər son zamanlar rayonun ərazisində aparılmış genişmiqyaslı arxeoloji qazıntılar və tədqiqatlar zamanı qızıl yataqları da aşkar edilmişdir. Bu rayonun ərazisində aparılmış axtarışların, tədqiqatların və kəşfiyyatların nəticəsində əldə olunan yüksək keyfiyyətə görə rayonun ərazisindəki qızıl mədəninin yaxınlığında qızıl zavodunun da tikintisi artıq dövlət rəhbərliyi tərəfindən rəsmiləşmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun davamçısı prezidentimiz cənab İlham Əliyevin 2003-cü ilin oktyabrında hakimiyyətə gəlməsindən ötən dövr Gədəbəy rayonu üçün də uğurlu illər olmuş, əslində, rayonun tarixinə inkişaf, quruculuq və abadlıq illəri kimi daxil olmuşdur. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) haqqında" 11 fevral 2004-cü il tarixli Fərmanlar Gədəbəy rayonunda da uğurla həyata keçirilir. Gədəbəy rayonu ən qısa müddətdə əksər göstəricilər üzrə respublikada qabaqcıl rayonların birinə çevrilmişdir [17, s.86].





Yeraltı və yerüstü sərvətlərlə zəngin olan bu məmləkət dünyada oxşarlığı ilə seçilən bir yaşayış məskənidir.

Bu gün əminliklə söyləmək olar ki, müstəqil Azərbaycan Respublikasının həyata keçirdyi uğurlu xarici siyasət nəticəsində beynəlxalq təşkilatlar və dünyanın aparıcı dövlətlərinin parlamentləri ölkəmizin ərazindəki qədim yaşayış yerlərini təsdiqləyir.

**Nəticə**

Tarixi mənbələrdən və aparılmış araşdırmalardan hamımıza məlum olduğu kimi qədim yaşayış düşərdəsi olan Gədəbəy rayonu neçə minilliklərin tarixini və tarixi yadigarlarını özündə yaşadır.

Haqqında danışmaq və yazmaq istədiyim Şurtəpə, Qədim Tağılar, Tayçarıx, Qalakənd rayonu (İndiki Bert rayonu) yaşayış məskənləri eramızdan əvvəl XII-VII əsrləri əhatə edən Xocalı-Gədəbəy mədəniyyətinin bir hissəsi kimi tariximizdə qalmaqdadır. Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən aşkar olunan tunc kəmərlər yüksək sənətkarlıqla hazırlanmaları ilə fərqlənir. Bu yerlərdən tapılan belə kəmərlərin bəzəmə motivi zəngindir. Bugünkü günə kimi Kəmər qayası kimi tanınan yer adı və yaxud kəmər qayanın özü də Xocalı-Gədəbəy mədəniyyəti nümunələrindəndir. Onu da qeyd edim ki, arxeoloji tapıntıların və qazıntıların əsas mərhələləri bu yerdə də özünü göstərmişdir. Misal üçün bu yerlərdə aparılmış arxeoloji qazıntılar və oradan tapılmış tapıntılar onun kimi də haqqında danışdığımız yerlərdəki, yaşayış məskənlərinin varlığı, aparılmış tədqiqatların əsas göstəriciləridir. Kültə, Dar cığırdakı, Qartalın quzeyindəki və Qızıl qaya yaşayış yerlərindəki qədim yaşayış yerlərini qeyd etdiklərimizə misal kimi göstərə bilərdim [13, s.64; 19].

Bütün bunlar sübut edir ki, müasir beynəlxalq həyat normaları milli mənafe anlayışının başqa millətlərin və dövlətlərin mənafelərinin hesabına reallaşmasını siyasətin əxlaqi məzmundan məhrum edilməsi kimi qavrayır. Amerikalı alim, Merilend Universitetinin politologiya ixtisası üzrə professoru Corc Kvesterin təbirincə desək, "əsl öz müqəddəratını təyinetmə, əsl siyasi demokratiya insanlarda başqalarına böyük hörmət bəsləmək, özünü başqasının yerinə qoymaq arzusu doğurmalıdır" [20].

Tarixin atası sayılan Herodot və coğrafiyaşünas Strabondan başlayaraq bu günə kimi çoxsaylı elmi mənbələrə istinadən yazılmış arxeoloji tədqiqat, axtarış və qazıntılar nəticəsində əldə olunan elmi-tədqiqat əsərlərinin real faktlara söykəndiyini bugünkü arxeoloji qazıntılardan da görmək olar [22].

Cənubi Qafqazda yaşayan etnik qrupların, onların yaratdıqları qədim dövlətlərin elmi mənbələrə və tarixi faktlara söykənən real mənzərəsini və maddi və mənəvi dəyərlərini də tədqiqat predmeti kimi vurğulamaq olar. Azərbaycanın qədim və

müasir dövrünün arxeoloji tədqiqatları onu deməyə əsas verir ki, doğrudan da Azərbaycan qədim yaşayış məskəni olmaqla yanaşı, zəngin tarixə və maddi mədəni irsə malik bir ölkədir [24].

Xalqın mənəvi aləminin maddi təcəssümü olan qədim qaya təsvirləri, yazılar, manuskriptlər, xalça naxışları həssas qəlbli, mədəni şüura, elm adamlarına, insanlara çox şeydən xəbər verir. Azərbaycanın çox qədim mədəniyyətə malik bir ölkə olması barədə dərin təəssürat yazılı və şifahi tarixin çoxsaylı faktlarına söykənir. Uzaq keçmişdə Azərbaycana köçüb gəlmiş Oğuz tayfaları burada zəngin yerli mədəniyyətlə qarşılaşmışlar.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan tarixi: 7 cilddə, I c., Bakı; "Elm", 1998. s. 520s
2.Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960, s. 84,
3.Cəfərzadə İ.M. Azərbaycan tarixinin ən qədim dövrü. Bakı, 1956. s.122,
4.Cəfərov Ə.Q. Azərbaycan qədim insan məskənidir. Bakı: Azərnəşr, 1989. s. 157
5.Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycanın arxeoloji abidələri. Bakı. 1981. s. 217
6.Muradova F. Qobustan tunc dövründə. Bakı, 1979. s.176
7.Məmmədova F.S. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993, s.214
8.Moisey Kalankatuklu. Albaniya tarixi. Bakı, 1993. s.174
9.Osmanov F.A. Qafqaz albaniyasının maddi mədəniyyəti. Bakı, Elm, 982, s.213,
10.Rüstəmov Ç.N. Qobustan dünyası. Bakı, 1994.s.147
11.Vəliyev S.T. Azəzrbaycan Arxoelogiyasının mürəkkəb və ziddiyətli məsələləri. Avrasiya Universiteti. "Sivilizasiya" jurnalı, Cild 7 N 1 2018 (37) Bakı, 2018, səh, 196-201.
12.Vəliyev S.T. Arxeologiya elmini dərki üçün zəruri olan düşünmə prosesləri. "Elmi əsərlər" № 25. Bakı, 2018, ADMİU-nun mətbəəsi, səh. 22-27.
13.Vəliyev S.T. Arxeologiya elmi Azərbaycan tarixinin öyrənilməsində bir mənbə kimi. Avrasiya Universiteti. "Sivilizasiya" jurnalı, Cild 8 N 1 2019 (41) Bakı, 2019, səh, 59-65.
14.Vəliyev S.T. Azərbaycan arxeologiyası – maddi mədəniyyətimizin əsas mənbəyi kimi. "Elmi əsərlər" № 27. Bakı, 2019, ADMİU-nun mətbəəsi, səh. 27-34.
15.Vəliyev S.T. Arxeoloji mədəni sərvətlərin tədqiqi. Avrasiya Universiteti. "Sivilizasiya" jurnalı, Cild 9 N 1 2020 (45) Bakı, 2020, səh, 23-34.
16.Vəliyev S.T. Müasir Arxeologiya elminin inkişafı ictimai-iqtisadi formada təhlil obyektinə çevrilməkdədir. Avrasiya Universiteti. "Sivilizasiya" jurnalı, Cild 10 N 1 2021 (46) Bakı, 2021, səh, 44-49.





17.Vəliyev S.T. Müasir Arxeologiya elmi-ictimai-iqtisadi təhlil obyekti kimi. "Sivilizasiya" jurnalı, Cild 11 N 4 2021 (47) Bakı, 2021, səh, 82-89.
18.Vəliyev S.T. Vəliyev S.T. "Azərbaycan abidələr məskənidir". "Sivilizasiya" jurnalı, Cild 11 N 2 2022 (51) Bakı, 2022, səh, 35-41.
19.Bosworth, C.E. "Azerbaican IV: Islamic History to 1941", Encyclopaedia Iranica, vol. 3.1, London: Routledge & Kegan Paul,1989
20.Planhol, X. "Azerbaican I: Geography", Encyclopaedia Iranica, vol. 3.1, London: Routledge & Kegan Paul, 1989.
21.Frye R.N. The History of Ancient Iran. München, 1983.
22.Schippmann, K. "Azerbaijan III:Pre-Islamic History". Encyclopaedia Iranica, vol. 3.1. London: Routledge & Kegan Paul, 1989.
23.Prof. M. T. Zehtabi – İran türklərinin əski tarixi, II cild, Tehran, 1998, səh 326
24.İvan Meşşaninov. Arxeoloji mədəniyyətlər. 1977, s. 321

**Сахиб Тельман оглы Велиев**

# КРАЕВЕДЧЕСКАЯ ИСТОРИЯ КЕДАБЕКА НА ОСНОВЕ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК

**Резюме:** Кедабекская земля Кедабекского велаята, являющаяся одним из старейших поселений, обладающая завораживающей природной красотой и старейшими историческими местами, имеет древнюю и богатую историю. Каждый уголок, каждый камень этой прекрасной земли, оставленный нам нашими великими предками в качестве реликвии, наглядно демонстрирует высокий гений, великую силу и великую культуру Азербайджана.

Архитектурные памятники Кедабекского района уже стали символом нашей национальной культуры и истории. Древнейшие замки, башни и древние поселения на территории региона, которые были когда-то обнесены черными стенами, являются самыми древними. Совершенство инженерно-архитектурного решения целого ряда зданий и сооружений оборонного, культового, социального и церемониального характера, которые сохранились до наших дней, свидетельствует о высоком уровне профессионализма архитектурной школы, занимающей важное место в культурной истории нашей нации.

Одним из важнейших источников для изучения различных проблем истории Азербайджана являются древние кувшины, которые известны как «сокровища Кедабея» в жилых районах Кедабекского района, содержащие различные ценные предметы, серебряные монеты, предметы домашнего обихода, ожерелья и украшения.

Можно также отметить, что Кедабекская земля, являющаяся каменной эн-

циклопедией нашей архитектурной истории, неразрывными проводами связана с древними зданиями, построенными в каждом районе Азербайджана. Созданный пленниками облик нашего Кедабея отражает единство редких архитектурных жемчужин с неповторимым рельефом.

**Ключевые слова:** Гедабекский район, археологические раскопки, Ходжалы-Гедабекский рудник, национальные сокровища, региональная история, «Чайканд».

**Sahib Telman oghlu Valiyev**

## REGIONAL HISTORY OF GADABAY BASED ON ARCHAEOLOGICAL EXCAVATIONS

**Summary:** Gadabay land, Gadabay province, which is one of the oldest residential camps and oldest historical places with natural fascinating beauty, has an ancient and rich history. Every corner, every stone of this beautiful land, which our great ancestors left as a relic for us, clearly demonstrates the high genius, great power, and great culture of the Azerbaijani people.

The architectural monuments of Gadabay region have already become a symbol of our national culture and history. The oldest castles, towers, ancient settlements in the territory of the region, which were surrounded by black walls at one time, are the oldest. The perfection of the engineering-architectural solution of a number of buildings and structures of defense, religious worship, social and ceremonial nature, which have been preserved to this day, indicates the high level of professionalism of the school of architecture, which occupies an important place in the cultural history of our nation.

One of the most important sources for studying various problems of Azerbaijan's history is the ancient jars, which are known as "Gadabay treasures" in the residential areas of Gadabay region, containing various valuable items, silver coins, household items, necklaces and ornaments.

We can also mention that Gadabay land, which is a stone encyclopedia of our architectural history, is connected with unbreakable wires to the ancient buildings built in every region of Azerbaijan. The face of our Gadabay created by captives reflects the unity of rare architectural pearls with its unique relief.

**Key words:** Gadabay region, archaeological excavations, Khojaly-Gadabay mine, national treasures, regional history, "Chaykand".

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04. 11. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova**